**P.G.ƏLİYEVA**
*filologiya üzrə fəlsəfə doktoru, dosent*
*e-mail: pakiza.aliyeva.g@gmail.com*
**:https://orcid.org/0009-0001-8982-2654**

**Azərbaycan Dillər Universiteti**
(Bakı şəh., R.Behbudov küç., 134)

**10.62021/0026-0028.2025.2.148**

# UİLYAM QOLDİNQİN "MİLÇƏKLƏRİN HÖKMDARI" KİTABINDA ARXETİPLƏRİN TƏDQİQİ (2-ci məqalə)

***Xülasə.*** *İsveçrəli psixiatrist Karl Yunqun (Carl Jung,) psixologiya haqqında fikilərinə əsasən demək olar ki, arxetiplər və imiclər kollektiv təhtəlşüurun təzahür formalarıdır. Yunq öz mentoru Ziqmund Freydin (Sigmund Freud) tərəfdarı olaraq çıxış edirdi. Lakin Yunq irəli gedərək analitik psixologiya kimi tanınan psixoanalitik yanaşma mövqeyini inkişaf etdirə bilmişdir.* Taedium Vitaenin tərcümə etdiyi *"Təkamülü dəstəkləyən elmlər: psixologiya və psixiatriya" adlı məqaləsində qeyd edilirdi: Psixologiya sadə davranışları və zehni əməliyyatları (prosesləri) araşdıran elm sahəsidir. Çox vaxt onun əsas məqsədi cəmiyyətin yaxşılıq səviyyəsini artırmaqdır. Psixologiyada ümumi olaraq fərdlərin zehni davranışları ilə cəmiyyətin ictimai davranışları araşdırılır və bunlar Neyrobiologiya (nevrologiya) ilə birləşdirərək davranışlar ilə psixi proseslər arasındakı əlaqələri ortaya çıxarmağa çalışılır. Psixologiya sahəsində çalışan elmi tədqiqatçılar – psixoloqlar, üç əsas istiqamətdə ayrılırlar: sosioloqlar, davranışı və qavrayışı öyrənən alimlər. Bu sahələrdəki elm adamları qavrayış, dünyagörüş, qavrama, diqqət, duyğular, fenomenologiya, motivasiya, beyində baş verən proseslər, davranışlar, şəxsiyyət və fərdlərarası əlaqələr üzərində araşdırmalar edirlər. Bəzi psixoloqlar sadalanan sahələri daha da dərindən araşdıraraq şüuraltı mövzunu da öyrənirlər. Yunq isə iddia edirdi ki, insan psixikası üç komponentdən ibarətdir: ego (The ego), fərdi təhtəlşüur (personal unconscious), kollektiv təhtəlşüur (colective unconscious). Tədqiqat obyekti olaraq Uilyam Qoldinqin (William Golding, 1911-1993) "Milçəklərin hökmdarı" ("Lord of the Flies", 1954) kitabındakı arxetiplər araşdırılır.*

***Açar sözlər:*** *məsumluq, mifoloji anlayış, situasiya, diktatorluq, demokratik prosedur*

Uilyam Qoldinqin (William Golding, 1911-1993) "Milçəklərin hökmdarı" ("Lord of the Flies", 1954) kitabında təqdim olunan obrazlar müyyən xüsusiyyətlər nümayiş etdirməklə fərdlər kimi təqdim olunurdu. Həmin fərdlərə biz hər gün məktəblərdə, işdə və cəmiyyətin hər hansı məkanında rast gəlirik. Əslində uşaqların sonradan qazanmış olduqları spesifik xüsusiyyətlər yaranmış situasiyada daha erkən üzə çıxmışdır. Məsum kimi tanınan uşaqların xarakterlərindəki özünəməxsusluqlar böyüklərin rəftarlarında hər an hiss olunur. Romanda U.Qoldinq sübut etməyə çalışır ki, əslində insan özünəməxsus xüsusiyyətlərlə doğulur və bu keyfiyyətlər müəyyən situasiyalarda üzə çıxır. Qəza nəticəsində cənnətə bənzər təbiətə malik olan adaya düşən insanlar onu cəhənnəmə döndərirlər. İlk əvvəllər adada sağ qalmağı düşünən uşaqlar sonradan ürəklərində yaranan qorxu ilə idarə olunurlar.

Kitabda protoqonisti kimi tanınan Ralf orta təbəqənin kürən, atletik bədən quruluşuna sahib olan, yaraşıqlı, ümidverici simaya malik və xarizmatik nümayəndəsidir. O, dəstənin digər üzvlərinə rəhbərlik edirdi və ingilis ənənələrindən çıxış etməyi əsas tuturdu. Ralf çalışırdı ki, uşaqlar sığınacaqla təmin olunsunlar. Ralf sivilizasiya və demokratiyanı təmsil etdiyi üçün qaydalarla yaşayırdı, təmkinli hərəkət edirdi və qrup üzvlərinin yaxşı tərəflərini qiymətləndirirdi. O, şübhəsiz Qoldinqin yaşadığı zamanda sivilizasiya və demokratiyanın nəbzini tutmağa çalışırdı. Ralf öz instinktlərinə istinad edərək bütün uşaqlar üçün adada sivil utopiya yaratmaq arzusunda idi. O, adaya səpələnmiş uşaqları şeypur kimi istifadə etdiyi kançı üfürərək bir ara-

ya toplanmaq üçün səsləyirdi. Ralf fikirləşirdi ki, dəstəyə başçı seçilməlidir. Onun qərarları demokratiya və qaydalara əsaslanırdı. Ralf dəstənin lideri seçildikdən dərhal sonra danışıq qaydalarını hazırladı. O, çalışırdı ki, digər oğlanlar sivil yaşama prinsiplərini qoruya bilsinlər.

Baxmayaraq Ralf yeganə adam idi ki, o digərlərinin sağ qalması üçün təminat yarada bilirdi, onun sivilizasiya haqqında instinktləri digər uşaqların ideyalarından daha inamlı səslənirdi, o da ciddi problemlə qarşılaşdıqda qətiyyətli və qərarlı ola bilmirdi. Ralf lider seçildiyi andan daima alovlanan siqnal ocağın saxlanılmasını əmr etmişdir. Onun məqsədi ötüb keçən hər hansı bir gəminin diqqətini cəlb etmək idi. Ralfın qətiyyəti sudan tanınmaz bir varlığın peyda olunması ilə sarsıldı. O, çaşqınlıq içərisində alov-siqnalın saxlanılması üçün verilən qərarı peşmanlıqla yada salırdı. Vəhşi varlığın ortaya çıxması onların yaratdığı hər şeyi məhv etdi.

Ralfın intellekti qorxu qarşısında sarsıldı və Cek yaranmış vəziyyətdən istifadə edərək öz hakimiyyətini irəli sürdü. Ralf dağın zirvəsindəki alov-siqnalın yerini qaya üzərinə dəyişilməsi haqqında razılığa gəldı. Ralf nəinki Cekə qarşı çıxış etdi, hətta o liderlik mövqeyini tərk etməyi düşünürdü. Ralf Cekin Saymona qarşı hazırlanmış vəhşilik aktında da iştirak etməkdən çəkinmədi. Beləliklə, Ralf vəhşiliyin genişlənməsinə kömək etməli oldu [2].

Fikirlərimizi daha aydın təqdim etmək üçün İkinci Dünya müharibəsi dövründə sosial vəziyyəti araşdıraq. Qoldinq uşaqların hər birini dövrünün siyasətçiləri ilə müqayisə etmişdir. O, Ralfı Çemberleyn, Ceki Hitler, Roceri isə Qestaponun prototipi kimi təqdim etmişdir. Tədqiqatçı Kristin Olsen belə bir qarşılaşdırmanı qəbul etməsə də müqayisələr inandırıcı və ağlabatandır. Müharibədən öncə Baş Nazir olan Çemberleyn Hitlerin aqressiv hərəkatlarına qarşı barışdırıcı mövqedə olmuşdur. Onun düzgün hesab edilməyən diplomatik siyasəti nəticəsində Hitlerin işğalçılıq planları kifayət qədər genişləndi və dünya tarixində ən böyük faciənin yaranmasına səbəb oldu [5, s. 165].

Kitabın əsas personajlarından biri olan Ralfla Çemberleyn arasında oxşarlıq vardır. Ralf oğlanlar arasında lider seçilsə də, Cek onun hakimiyyətinə qarşı etiraz edərkən o, Cekin etirazlarına kəskin münasibət bildirmirdi. Ralfın Çemberleyn kimi bacarıqları olsa da o bu imkandan istifadə edə bilmədi. Ralf Cekə qarşı meydan oxuya bilərdi və onu birdəfəlik susdura bilərdi. O, Piqiyə koalisiyanın qurulmasında daha yardımçı ola bilərdi. Ralf isə öz bacarıqlarını düzgün dəyərləndirə bilmədi və liderliyi əldən vermək haqqında düşünürdü. Ralfın bəzi vacib məqamlarda Cekin mövqeyinə qarşı yanlış qərarları və tərəddüdləri hadisələri məcrasından çıxartdı və bu da Cekin dəstəsinin daha qəsbkar və qorxunc olmasına meydan açdı. Kitabın sonunda Ralf artıq vəhşiliyin səbəbini anlayırdı. O, ovçular tərəfindən ovlandığı zaman milçəklərin hökmdarını – Bilzibubu tapdı. Ralf payanın başına pərçimlənmiş donuzun başını yerə çırpdı və payanı nizə kimi istifadə etməyi düşündü. O artıq yetkinləşmişdi və vəhşiliyin səbəbini anlayırdı.

Kitabın sonunda Ralf “for the end of innocence, the darkness of man’s heart, and the fall through the air of the true, wise friend called Piggy” (məsumluğun sonu naminə, insan qəlbinin qaranlıq tərəfləri və doğruların içində yanılma, Piqi adlanan müdrük dost) deyərək ağlayırdı. İngilis ofiseri onu xilas etsə də, o dostlarını, məsumluğunu itirmişdir. Ralf sivilizasiyanın dəyərlərini qoruya bilməsə də, o, yeganə günahkar deyildir. Müəllif bəşəriyyətin pisliklərdən qorunmaq üçün hazır olmadığını qeyd edirdi. Bəzi tədqiqatçılar isə U.Qoldinqin İkinci Dünya müharibəsindən sonra pessimist olduğunu yazırdı. Lakin Ralfın həqiqəti başa düşməsi və vəhşiliyin səbəbini anlaması yeni ümid yaradırdı [3].

Kitabın əvvəlindən sonuna qədər Piqinin həqiqi adını oxucu öyrənə bilmir. Piqi intellekt və rasionalizmin təcəssümüdür. İlk olaraq məhz Piqi adadakı həyatın ciddiliyini başa düşmüşdür. Piqi Ralfa situasiyanın ciddiliyini üç sözlə – ‘death in succession’ (‘ölüm qaçılmazdır’) kimi izah etmişdir. Əlavə olaraq, uşaqların bir yerə toplanması ideyasını da o irəli sürmüşdür. Kanç (şeypur) haqqındakı informasiyanı da məhz Piqi Ralfa demişdi. Piqi ilk olaraq həyatın seçimlər və müəyyən prioritetlər üzərində qurulduğunu söyləmişdi. Siqnal – alovun meşədə yandırılmasının təhlükəli olduğunu və daimi olaraq ocağın yanması üçün ehtiyat odunun zəru-

ri olduğunu təklif etmişdi. Piqi hətta vaxtı nizamlamaq üçün günəş saatı (sundial) yaratmışdı. Piqi həyata rasional və elmi münasibət bəsləyirdi. Uşaqlar vəhşi varlığın peyda olmasından təşvişə düşərkən belə o, təmkini itirməmişdir. O hər bir hadisənin elmi izahı olduğunu bildirmişdir. Piqi həqiqi qorxunun məhz insanların vahiməsi olduğunu söyləmişdir. Onun gələcəyə baxan iti baxışları hər şeyi aydın görürdü.

Piqi pis insanları hiss edə bilirdi, lakin nə etməli olduğunu bilmirdi. "Ovçular" Allaha – milçəklərin hökmdarına sitayiş edərkən o, elm və rasionalizmə istinadən kənarda qalırdı. O, daima Ralfın yanında durmağı üstün tuturdu. Piqi Balantinin inam nəzəriyyəsinə istinad edərək ümumi hissiyyatın hər hansı problemi həll edəcəyinə inanırdı. O, əksəriyyət insanın bu kimi hisslərə malik olduğunu deyirdi. İkinci Dünya müharibəsinin qaynar çağında Piqi digər uşaqlarla müqyisədə sanki yaşlı kişi kimi görünürdü. O, həmişə Balantinin fikirlərinə sadiq qalırdı və Ralfla yanaşı dururdu. Cek isə onun məsləhətlərini faydasız hesab edirdi və anlamaq istəmirdi ki, faşizm qarşısında həyat yoxdur. Piqi payanın ucuna pəçimlənmiş donuz kimi qurban olaraq seçilmişdir. Anarxiya animalizminin mövcud olduğu cəmiyyətdə Piqi kimilər həmişə məhvə məhkumdur. Çıxış yolu yoxdur.

Cek kitabda Ralfın antaqonisti kimi təqdim edilmişdir. O, ovçuluq, taktika, amansızlıq, səriştə və diktatorluğun təcəssümüdür. Cek avtoritar (man-of-power) kimi çıxış edirdi və vəhşilik və diktatorluğu təmsil edirdi. Cek iradəli olsa da, onun eqomanyak xüsusiyyəti daima vəhşilik və zorakılıq instinklərinin qabarmasına yol açırdı. Cek daima kölgə və aydın olmayan qüvvələrlə əlaqə yaradırdı. Onun iti baxan acıqlı gözləri düşüncələrindən xəbər verirdi. O, hadisələr baş verən andan ərzaq üçün ovçuluq etməyi təkid edirdi. Cekin ovçuluğa meyli onun üstüörtülü olsa da qana olan marağından xəbər edirdi. "He has outwitted a living thing, imposed their will upon it, and taken away its life like a satisfying drink" ("O yaşamaq üçün ərzaq əldə edilməsini sanki öz məqsədi üçün bəhanə kimi istifadə etməyə çalışırdı."). Cek ovunu məğlub edib və sonra ərzaq məqsədilə öldürən zaman məmnunluq hissi keçirirdi.

Cek düşdüyü situasiyada artıq sivilizasiyanın onun istəklərini məhdudlaşdıra bilmədiyini anlamırdı. Onun həqiqi üzü ortaya çıxmışdı. Ovçuluq sanki Cekə əməllərini pərdələmək üçün maska rolunu oynayırdı. O, sivilizasiyanın da qəbul etdiyi ovçuluq adı altında çəkinmək və ya hisslərinə hakim kəsilə bilmək kimi hisslərdən tamamilə uzaqlaşaraq əliqanlı qatilə çevrilmişdir. Cek ətrafına yığa bildiyi uşaqlarla qanlı əməllərini zaman-zaman genişləndirirdi. O hər an daha çox azğın və qəsbkara çevrilirdi. Azğınlıq hissi Cekin gözünü elə bağlamışdı ki, o, heyvanlar və insanlar arasındakı fərqi belə unutmuş və ibtidai insanların etdiklərini sanki təkrarlayırdı. Cek ovçulara yalnız donuzu ovlaya bilmək üçün rəhbərlik etmirdi, o həm də Saymonu, Piqini və hətta Ralfı hədəf almışdı.

Görkəmli ədəbiyyatşünas və yazıçı Alastair Niven Cekin vəhşiliyin ən bariz nümayəndəsi kimi təqdim edirdi. "Jack represents much more completely than anyone else in the book the theme of 'reversion to savagery' and he reveals that under the disguise of painted mask he can assume a more self-confident personality". Cek yalnız hərəkət etmirdi, əksinə o, totalitar, avtoritar gücə malik insan kimi rəftar edərək kança (şeypur rolunu oynayırdı) və çağırış toplantısına həqarətlə baxırdı. Bir müddət sonra Cek qəbilənin mütləq liderinə çevrildi.

Cek toplantıda güc və hakimlik arzusunu açıq-aşkar nümayiş etdiridi. O, təkəbbbürlə "I ought to be leader, because I'm chapter chorister and head man. I can sing C sharp" ("Mən rəhbər olmalı idim, ona görə ki, mən əsas adam və xoristəm. Mən C notunu ifa edə bilirəm"). Cekin xor məktəbində üstünlük qazanması onun düşüncəsində iyerarxiyanın vacibliyi haqqında çox şeylər yatmışdı. O, fikirləşirdi ki, xor məktəbində əsas və ya baş rolun ifaçısı hər bir yerdə birinci adam olmalıdır. Cek səsverməni qazana bilməsə də, o özünü məğlub hesab etmirdi. O, davamlı olaraq azğınlıq edir və demokratik proseduranı və toplantını dağıtmağa cəhd göstərirdi.

Cek inanırdı ki, idarə edə bilmək üçün rica etmək yox, vadar etmək və ya şirnikləşdirmək yox, terrorist kimi hərəkət etmək lazımdır. Nəhayət, Cek arzusuna çatdı. O, real diktator

kimi ovçuların itaətkarlığından məmnunluq hissi duyur və onları terrorçuluq prinsipləri ilə idarə edirdi. Cekin uğurları artdıqca, o, qəbilənin qeyri-şərtsiz və disput olmadan belə qəbul olunan liderinə çevrilirdı: "where he sits on his log-throne, painted and garlanded, sat there as an idol. There were piles of meat upon green leaves next to him, and fruit, and coco-nut shells full of drink." ("o, rənglənmiş və çələnglə örtülmüş taxtında oturur və özünü büt kimi hiss edirdi. Onun ətrafında yaşıl yarpaqların üzərində ət parçaları, meyvə və kokain qabıqlarında içki var idi"). Güc hissi Cekdə yeni məşum keyfiyyətlər formalaşdırmışdı: "as if power lay inside the brown swell of his wide forearms: authority sat upon his shoulders and chattered in his ears like an ape." ("sanki güc onun bazu önünün təpəsində oturmuşdu, hakimlik çiyinlərində dayanıb meymun kimi qulaqlarına pıçıldayırdı"). (William Golding, 164-165).

Lakin Cekin arbitaj qərarı ilə Uilfredin döyülməsi, siqnal-tonqalın qəsbkarlıq zəmnində oğurlanması, Səm və Erikin zorla işə qarışdırılması və Piqinin sərsəm şəkildə öldürülməsi onun güc bütünə xələl gətirdi. Cekin daha hansı istəkləri onu məmnun edə bilərdi: o adanı tam olaraq öz arzuları yolunda qurban seçmişdi. Lakin Cek başa düşə bilmirdi ki, adanın qəsb olunması onların özlərinin məhvinə səbəb ola bilərdi. Cekin beynində kök salan bir fikri – Ralfın öldürülməsi – isə bütün uşaqların həlak olması demək idi. Lakin Cek terrorizm və azğınlığın ən yüksək həddinə çatdı. Uilyam Qoldinqin mükəmməl Cek personajı sivilzasiyanın olmadığı hər hansı məkanda ilkin (arxetiplərin) istəklər və hərəkətlərin necə asanlıqla reallaşa bildiyini göstərməklə kifayətlənmir, o həm də belə bir situasiyada diktatorun – Bilzibubun (milşəklərin hökmdarı) – pisliyin (şeytanın) diktəsi və qana susaması ilə nələrin ola biləcəyini təqdim edir.

Kitabda yer alan digər əsas personajnaldan biri Saymon (Simon) yaxşılıq və müqəddəsliyin simvolu kimi qəbul edilir. Əsərdə Saymonun mövqeyini müəyyənləşdirmək oxucudan böyük həssaslıq tələb edir. Beləliklə, əgər Ralf sivilizasiyanı, Cek isə vəhşiliyi təmsil edirsə, Saymon nəyi ehtiva edir? Cavab olaraq qeyd etmək lazımdır ki, Saymon adada olan bütün uşaqlardan fərqli müvqedə çıxış edirdi. Uilyam Qoldinq İkinci Cahan Savaşında təcrübələrinə istinadən qədim ritual müharibədə insan bacarıqlarının yox olduğunu qeyd edirdi. O, sözlərinə xitam olaraq yazırdı ki, ekstremal şəraitdə rasionalizm və humanizmin bəxş etdiyi bütün illüziyalar məhv olur. Tədqiqatçı R.Ceymz Baker Uilyam Qoldinqə bəraət qazandıraraq yazırdı: "the form of society can depend upon the ethical nature of the individual and not on any political system however apparently logical or respectable" ("cəmiyyətin formalaşdırılması məntiq və ya dəyərlərə əsaslansa da siyasi sistemə yox, fərdin etik təbiətinə uyğun formalaşdırılmalıdır"). "Milşəklərin hökmdarı" ("Lord of the Flies") əsəri yuxarıda qeyd olunan fikirlərin bariz nümunəsidir. Qoldinq Saymonun timsalında gələcek ideal şəxsiyyətin protipini yaratmışdır. Kitadakı digər personajların tədqiqinə əsaslanaraq demək olar ki, Saymon onların hamısından yüksəkdə dayanırdı. Saymon müqəddəsliyi, fitri , mənəvi insani yaxşılığı təmsil edirdi. Saymon öz təbiətinə xas olaraq, Cekin pislik instinktlərinin yaranması kimi davranırdı. Saymon "öz"ü kimi hərəkət edirdi.

Ümumiyyətlə, digər xarakterlər sivilizasiyanın olmadığı məqamlarda mənəvi-etik davranışları unudur və hətta yaranan vəziyyətdən sui-istifadə edirdi. Qoldinq pis keyfiyyətlərin uşaqların da təbiətinə xas olduğunu qeyd edirdi. Sadəcə, onlar böyüklərin nəzarəti altında müəyyən cəza və tədbirlərlər vasitəsilə nümunəvi davranışlar nümayiş etdirirlər. Müəllif sivilizasiyanın mövcud olduğu cəmiyyətdə davranışların ilkin – arxetipik formada təzahür etmədiyini və ya pərdələnmiş halda olduğunu qeyd edir. Adadakı uşaqlardan yalnız biri – Saymon günah və utancdan uzaq, mənəvi dəyərlərdən çıxış edirdi. Lakin bu xüsusiyyətlər Saymona genetik olaraq ötrülmüşdür. Eyni zamanda digər uşaqlara da davranışları irslə verilmişdir. Saymonun digər uşaqlara təsiri heç vaxt müqəddəs deyildir. Uilyam Qoldinqin təbirincə desək, təsvir edildiyi kimi müqəddəsdir.

Tədqiqatçı Alastier Niven Saymonu İsa-nümunə, bəşəriyyətin sevgilisi, onun gələcəyinin xəbərçisi kimi təqdim edirdi ("Simon is like a Christ-figure…a lover of mankind, a visionary of future").

**İşin elmi yeniliyi.** Uilyam Qoldinqin yaradıcılığı haqqında kifayət qədər məqalələr, elmi tədqiqat işləri yazılsa da, əsərləri nəşr edilsə də, onun romanlarında arxetiplər əsaslı şəkildə araşdırmaya cəlb edilməmişdir. İlk dəfə olaraq, bu görkəmli yazıçının "Milçəklərin hökmdarı" kitabında arxetiplər sistemli və ümumiləşdirilmiş şəkildə nəzərə çatdırılmışdır.

**İşin tətbiqi əhəmiyyəti, iqtisadi səmərəsi.** Uilyam Qoldinqin yaradıcılığını araşdıran alimlər, müəllimlər, filologiya fakültəsinin tələbələri üçün yardımçı vasitə ola bilər. Araşdırılmış mövzu XX əsr ingilis ədəbiyyatı üzrə xüsusi kurslarda, diplom, magistr və dissertasiya işlərinin yazılmasında tətbiq oluna bilər.

### Ədəbiyyat

1. Baker, James R. William Golding / Baker James R. –New York: St.Martin"s Press, – 1965. –106 p.
2. Bloom, Harold. Ed. Lord of The Flies: Modern Critical Interpretations. –New York: Chelsea House Publishers, – 1998. – 185 p.
3. Golding, W. The Inheritors. Harcourt, Brace and World / W. Golding. – 1962, – 233 p.
4. Olsen, K. Understanding Lord of The Flies:A Student Casebook to Issues, Sources, And Historical Documents / K.Olsen. –CT: Greenwood Publishing Group, –2000, – p.236-238.
5. Aliyeva, P. The research of Archetypes W. Golding ‘ s "Lord of Flies", The Actual Problems of Study of Humanities, Collection of scientific articles, – 2024, – 3, – p. 165.
6. Swisher, C. Ed. Readings upon Lord Of The Flies / C.Swisher. –San Diego, – CA: Greenhaven Press, – 1997. – 170 p.
7. Williams, N. Adaptor. William Golding's "Lord of The Flies": Acting edition / N.Williams, – London, – 1996. – 251 p.
8. //www.sparknotes.com/lit/flies/motifs/
9. https://www.sparknotes.com/lit/flies/symbols/

**P.G.Aliyeva**

### The Research of Archetypes in William Golding's "Lord of the Flies"

***Summary***

The research investigates the archetypal elements which are presented in William Golding's novel "Lord of the Flies." The book, a profound exploration of human nature, employs different archetypes to deepen its thematic concerns and character portrayals. Some characters, such as Ralph, Piggy, Jack, Simon, Roger are presented as archetypes: Ralph is protagonist, represents the archetype of the hero and the struggle for order and civilization. Piggy embodies the archetype of the wise mentor or intellectual, emphasizing logic and reason amidst chaos. Jack represents the shadow archetype, embodying savagery and the desire for power. Simon is a Christ-figure archetype, symbolizes innate goodness and spiritual insight. Roger is the sadist archetype, represents the darker aspects of human nature unrestrained by societal norms. The Main Idea of the Book is a stark portrayal of the descent into barbarism by a group of boys stranded on an uninhabited island. Golding uses the story to examine the inherent evil within humanity, suggesting that without the structures of society, humans revert to primal instincts and savagery. The author aims to critique the notion of childhood innocence and the inherent goodness of humanity. stripping away the mask of civilization, he exposes the underlying brutality and moral fragility within humans. The novel serves as a cautionary tale about the thin veneer of society that keeps our darker instincts in check. Overall, the research highlights how "Lord of the Flies" employs archetypes to explore complex themes of civilization, savagery, and the human condition.

***Key words:*** *innocence, mythological concepts, situation, dictatorship, democratic procedure*

**П.Г.Алиева**

### Исследование архетипов в романе Уильяма Голдинга "Повелитель мух»

***Резюме***

В данной статье рассматриваются архетипические элементы, присутствующие в романе Уильяма Голдинга «Повелитель мух». В книге, представляющей собой глубокое исследование

человеческой натуры, используются различные архетипы для понимания тематики и изображения персонажей. Некоторые персонажи, такие как Ральф, Пигги, Джек, Саймон, Роджер, представлены как архетипы: Ральф – главный герой, олицетворяет собой архетип героя-борца. Хрюша олицетворяет архетип мудрого наставника или разумного интеллектуала. Джек олицетворяет архетип тени, представляющий дикость и стремление к власти. Саймон – это архетип Христа, символизирующий врожденную доброту и духовную проницательность. Роджер – архетип садиста, олицетворяющий темные стороны человеческой натуры, которые противоречат общественным нормам. Основная идея книги – яркое изображение варварства мальчиков, оказавшихся на необитаемом острове. У.Голдинг пытается донести до читателя все зло, присущее человечеству, доказывая, что люди возвращаются к первобытной дикости. Автор стремится подвергнуть критике представления о детской невинности и врожденной доброте человечества. Срывая покровы цивилизации, он раскрывает скрытую в людях жестокость и моральную уязвимость. Роман служит поучительной историей о тонкой оболочке общества, которая сдерживает наши темные инстинкты. В целом, исследование показывает, как в «Повелителе мух» описываются архетипы, изображающие дикость человечества.

***Ключевые слова:*** *невинность, мифологическая концепция, ситуация, диктатура, демократическая процедура*

*Rəyçi: f.ü.f.d., dos. X.G.Əliyeva*

*Redaksiyaya daxil olub:13.05.2025*